# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 256

## QƏRAR

Bakı şəhəri,1 avqust 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası"nın təsdiq edilməsi haqqında" 2003-cü il 31 oktyabr tarixli 145 nömrəli, "Azərbaycan Respublikasının vətəndaşlarına, habelə Azərbaycan Respublikasında daimi yaşayan və ya qaçqın statusu almış əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən fərdi identifikasiya nömrəsinin daxil edilməli olduğu və həmin şəxslərin uçotunun aparıldığı digər dövlət informasiya sistemlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında" 2008-ci il 5 fevral tarixli 28 nömrəli, "Dövlət qulluğuna qəbul üzrə müsahibədə iştirak etmək üçün müraciətə əlavə edilməli sənədlərin siyahısı və sənədlərin qəbulu Qaydaları"nın təsdiq edilməsi haqqında" 2017-ci il 11 iyul tarixli 285 nömrəli və "Sığortaolunanların və sığortaedənlərin işsizlikdən sığorta üzrə sığortaçıda qeydiyyatı Qaydası"nın təsdiq edilməsi haqqında" 2017-ci il 29 dekabr tarixli 618 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə

"Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 8 iyul tarixli 587-VIQD nömrəli Qanununun tətbiqi və "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli 616 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 19 avqust tarixli 1816 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 31 oktyabr tarixli 145 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 627; 2005, № 7, maddə 678; 2006, № 2, maddə 185, № 4, maddə 378, № 5, maddə 470, № 9, maddə 819, № 10, maddə 902; 2007, № 5, maddə 546, № 10, maddə 1026; 2008, № 2, maddə 114; 2010, № 7, maddə 700; 2011, № 7, maddə 737; 2012, № 2, maddə 178, № 11, maddələr 1203, 1212, № 12, maddə 1359; 2013, № 3, maddə 348, № 5, maddə 580; 2014, № 5, maddə 554, № 8, maddə 1005; 2015, № 5, maddə 669; 2016, № 2 (II kitab), maddə 389, № 7, maddə 1343, № 9, maddə 1585, № 11, maddə 1976; 2017, № 7, maddə 1499, № 12 (II kitab), maddə 2525; 2018, № 12 (II kitab), maddə 2760; 2019, № 3, maddə 516, № 4, maddələr 763, 781, № 8, maddə 1478; 2020, № 3, maddə 369, № 9, maddə 1206, № 10, maddələr 1273, 1304; 2021, № 2, maddə 207, № 3, maddə 274, № 9, maddə 1069; 2022, № 4, maddə 423, № 7, maddə 820, № 8, maddə 974; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 19 iyul tarixli 232 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası"nın 1.18-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"1.18. Ölən şəxsin fərdi identifikasiya nömrəsi, doğum və ölüm tarixləri barədə məlumat ölüm faktının qeyd olunduğu gün EHİS vasitəsilə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin aidiyyəti informasiya sistemlərinə ötürülür.".

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 5 fevral tarixli 28 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 2, maddə 109, № 5, maddə 434, № 7, maddə 672; 2009, № 7 maddə 610, № 10, maddə 846; 2010, № 4, maddə 355, № 8, maddə 769; 2014, № 3, maddə 316, № 5, maddə 556; 2016, № 7, maddə 1343, № 11, maddə 1963, № 12, maddə 2239; 2018, № 11, maddə 2428; 2019, № 4, maddə 763; 2020, № 3, maddə 369; 2023, № 2, maddə 321) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının vətəndaşlarına, habelə Azərbaycan Respublikasında daimi yaşayan və ya qaçqın statusu almış əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən fərdi identifikasiya nömrəsinin daxil edilməli olduğu və həmin şəxslərin uçotunun aparıldığı digər dövlət informasiya sistemlərinin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. doqquzuncu abzasda "Valideyn himayəsindən məhrum olmuş uşaqlar və övladlığa götürmə altsistemi" sözləri "Mərkəzləşdirilmiş elektron informasiya sistemi" sözləri ilə əvəz edilsin;

2.2. onuncu və on birinci abzaslar ləğv edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 11 iyul tarixli 285 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 7, maddə 1482, № 10, maddə 1906, № 11, maddə 2177; 2018, № 11, maddə 2432, № 12 (II kitab), maddə 2730; 2019, № 12, maddələr 2080, 2099; 2021, № 3, maddə 294, № 11, maddə 1289) ilə təsdiq edilmiş "Dövlət qulluğuna qəbul üzrə müsahibədə iştirak etmək üçün müraciətə əlavə edilməli sənədlərin siyahısı və sənədlərin qəbulu Qaydaları"nın 3.4-cü bəndi ləğv edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 618 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2563; 2019, № 7, maddə 1321; 2021, № 3, maddə 279) ilə təsdiq edilmiş "Sığortaolunanların və sığortaedənlərin işsizlikdən sığorta üzrə sığortaçıda qeydiyyatı Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.2. Bu Qaydada fərdi şəxsi hesab dedikdə "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, hər bir sığortaolunana Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu (bundan sonra - Fond) tərəfindən sosial sığorta nömrəsi ilə açılan fərdi uçot məlumatlarının əks olunduğu hesab nəzərdə tutulur.";

4.2. 3.1-ci bənddə "Məcburi dövlət sosial sığortası üzrə dövlət" sözləri "Dövlət" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***



Azərbaycan.- 2023.- 4 avqust.- S. 8.